**Bakı Xəbər.** - 2024. - 1 oktyabr. - № 176. - S. 4.

# Azərbaycanın 14 təşəbbüsü - iqlim dəyişmələri dayanıqlı inkişaf məqsədləri ilə necə əlaqələndiriləcək...

***Akif Nəsirli**: "Bu istiqamətdə ümumdünya həmrəyliyi olmalıdır ki, hədəflərə tam şəkildə çatmaq mümkün olsun"*

**İradə Sarıyeva**

**"COP29 sədrliyi bu il həmçinin karbon bazarları üzrə nəticəyə nail olmaq üçün Tərəflərlə işləyir. Tam işlək karbon bazarları Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin səmərəli şəkildə həyata keçirilməsi və təsirlərin azaldılması üzrə ambisiyaların gücləndirilməsi işində mühüm addım olacaqdır.**

Bununla yanaşı, biz iqlim fəaliyyəti ilə dayanıqlı inkişaf məqsədləri arasında əlaqə, yaşıl enerji zonaları və dəhlizləri, enerji resurslarının saxlanması, iqlim davamlılığının harmoniyası, kənd təsərrüfatı, təmiz hidrogen və üzvi tullantılarda metanın azaldılması, yaşıl rəqəmsal fəaliyyət və s. mövzuları əhatə edən 14 təşəbbüs irəli sürmüşük. COP29 Fəaliyyət Gündəliyindəki təşəbbüslərdən biri iqlim maliyyəsi üçün innovativ mənbə kimi yanacaq istehsal edən ölkələr və şirkətlər tərəfindən könüllü şəkildə dəstəklənməsi gözlənilən İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılmasından ibarətdir". Bunu xarici işlər naziri naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 79-cu sessiyasının ümumi müzakirələrində çıxışında deyib.

C.Bayramov deyib ki, 14 təşəbbüs irəli sürmüşük, iqlim maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması bu təşəbbüslərdən biridir.

Bu 14 təşəbbüs dayanıqlı inkişaf məqsədləri ilə iqlim məsələləri arasında əlaqə yaratmaqdır.

Azərbaycanın 14 təşəbbüsü - iqlim dəyişmələri dayanıqlı inkişaf məqsədləri ilə necə əlaqələndiriləcək?

*"Azərbaycanın irəli sürdüyü 14 təşəbbüsün həyata keçməsi üçün ölkəmiz tərəfindən real addımlar atılır"*

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli "Bakı-Xəbər"ə bildirdi ki, irəli sürülən təşəbbüslərin bir çoxu əvvəlki sessiyalarda da səsləndirilib, amma həllini tapmayıb. "Bu təşəbbüsləri Azərbaycan yenidən irəli sürüb və onları aktuallaşdırır. Azərbaycan bu məsələdə nailiyyət əldə olunması üçün addımlar atılmasında israrlıdır. İndiyə qədər keçirilən 28 sessiyanın heç birində İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılmasına nail olunmayıb. Bu Fondun yaradılması təşəbbüsü ilə Prezident İlham Əliyev çıxış edib və 1 milyard dollar ilkin mərhələ üçün nəzərdə tutulub. Yəni 1 milyard dollar iqlim dəyişikliyi ilə bağlı mübarizə fondunda ödəniləcəkdi. Məsələ burasındadır ki, birincisi, bu təşəbbüsün ardı gəlməlidir. Yəni fond 1 milyard dollarla məhdudlaşmır. Fondun həcmi təxminən 2 trilon dollara qədər artmalıdır ki, iqlim dəyişiliklərinə qarşı mübarizədə səmərəli fəaliyyət təşkil olunsun. Bütövlükdə, bu istiqamətdə ümumdünya həmrəyliyi olmalıdır ki, hədəflərə tam şəkildə çatmaq mümkün olsun.

Ümumi götürəndə, iqlim dəyişikliklərinə qarşı mübarizə iki istiqamətdə gedir. İstiqamətlərdən biri antropogen amillərin təsirlərini aradan qaldırmaqdır, bu ənənəvi istiqamətdir. Bu, həm insanların ətraf mühitlə davaranması, həm də baş verən müharibələrin iqlimə, atmosferə təsiridir. Müharibələr başlayanda partlayışlar kütləvi şəkildə atmosferə zərərli qazlar, maddələr atır. Hətta bəzən kimyəvi silahlardan istifadə edilir. Bir çox partlayışlar nəticəsində ekosistemlər zədələnir, yaxud sıradan çıxır. Iqlim dəyişikliyinin birinci istiqamətində kökləri adi kənd təsərrüfatı fəaliyyətindən tutmuş ölkələrin daxilində gedən müharibələrə qədər gedən rəngarəng məsələlər var. Müasir mərhələdə ən çox təsir edəni müharibələrdir. Dünyanın təxminən 215 ölkəsi var, bu ölkələrin 180-dən çoxunun ərazisində hazırda bu və digər şəkildə müharibəyə cəlbetmə var. Yəni 180-dən çox ölkə ya birbaşa, ya da vəkalətlə müharibədə iştirak edir"-deyə A.Nəsirli qeyd etdi ki, bu gün döyüşən qrupların hər birinin arxasında konkret dövlətllər durur, hər birini bir dövlət maliyyələşdirir, əks halda bu terrorçu qrupların əlində bu qədər müasir silahlar, bombardmançı təyyarələr olmazdı. "Müharibə edən, eyni zamanda terrorçuları müdafiə edən, onları silahlandıran ölkələr arasında əslində bir nizam yaradılmalıdır. Ümumi qaydalar olmalıdır ki, hamı birləşib iqlim dəyişikliklərinə qarşı mübarizəyə dəstək versin. Bütün dövlətlər beynəlxalq hüquqa riayət etsə, beynəlxalq qanunların aliliyinə hörmət edilsə, heç bir müharibəyə ehtiyac yoxdur. Məsələn, hamımızın bildiyimiz bir münaqişəni göstərmək istəyirəm. Azərbaycanla Ermənistan arasında münaqişə vardı, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdi. BMT-nin dörd qətnaməsinə dərhal əməl edilməsi üçün mexamizmlər

olmalı idi ki, Ermənistan öz sərhədinə qədər ərazidən qeyd-şərtsiz çıxsın. Amma bununla bağlı beynəlxalq hüququn aliliyini təmin edə bilmədilər, nəticədə müharibə baş verdi. Yəni bu gün BMT-də müzakirə olunan məsələlər ki var, onlar bir-biri ilə çuğlaşıqdı. Bu çuğlaşmada dövlətlər arasında münasibətlərin formalaşması, dövlətlərin bir-birinin suverenliyinə, hüquq bərabərliyinə hörmət etməsi ən həlledici amillərdən biridir. Amma çox təəssüflər olsun ki, bu gün dünya birliyi, tutaq ki, BMT haqqın yox, gücün yanındadır. "Kimin hüquqları tapdanır, o haqlıdır" prinsipi yoxdur, "bu gün kim güclüdür o haqlıdır" prinsipi var. Yəni dünyanın düzənini dəyişən, düzənini pozan əsas amil məhz budur. Amma digər amillər də var, antropogen təsirlərdən okeanın çirklənməsi məsələsi də mövcuddur.

Sənaye vasitəsilə, kənd təsərrüfatı fəaliyyəti, balıqçılıqla, tullantıların yığışdırılmasının səmərəli həyata keçirilməməsi ilə bağlı çirklənmə var. Yəni tullantıların idarə olunmasında nöqsanların olması ilə əlaqədar çirkənmələr mövcuddur. Tutaq ki, kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan fermerlər öz fəaliyyətlərini torpağın müalicəsinə uyğun qurmurlar. Suvarılan torpaqlarımızın 90 faizini selləmə suvarma ilə suvarırıq, bu da yavaş-yavaş torpağı şoranlaşdırır, torpağın ekosistemini dəyişir, orda bitki örtüyü yaranmır. Bu da ətraf mühitə öz mənfi təsirlərini göstərir. Bu bir tərəf.

Digər tərəf isə daha aktualdır, söhbət kosmosdan təsirlərdən gedir. Kosmosdan olan təsirlərin qarşısını yerdən almaq mümkün deyil. Bunun üçün mütləq dünya birləşməlidir. Dünyanın müxtəlif dövlətləri bir-biri ilə müharibə etmək əvəzinə sülhə nail olmalı və kosmosdan gələn o bəlanın qarşısını almaq üçün müzakirələrə başlamalıdırlar".

A.Nəsirli deyir ki, əgər bu məsələdə həmrəylik olmasa kosmosdan gələn təsirlər bəşəriyyətin sonunu gətirə bilər, bunu dünya dərk etməlidir, amma bu hiss olunmur. "Azərbaycan bu təşəbbüslərdə bulunmaqla göstərir ki, artıq bu reallıqları anlayır, elə bu anlayışa görə Azərbaycanın COP-a bir illik sədrliyi nəzərdə tutulub və COP29-a ev sahibliyi edir. Bu o ölkələrə etibar edilir ki, onlar bu istiqamətdə nəyəsə nail ola bilərlər. Çünki COP28-də heç bir irəliləyiş olmadı, amma indi COP29-dur. Ən dəhşətli təsir kosmosdan gələn təsirdir ki, onun qarşısını almaq üçün artıq Fondun yaradılması barədə razılaşdırma əldə edilib. Düzdür, hələ razılığa gəlinməyən ölkələr də var. Amma razılığa gələn ölkələrlə fondun 1 milyard dollar vəsaiti yaxın zamanlarda reallaşacaq. Bu, dünyaya bir mesajdır ki, Azərbaycan təkcə COP29-a ev sahibliyi etməyəcək, həm də indiyə qədər həllini tapmayan təşəbbüslərin reallaşması üçün artıq bir addım atılıb. Digər məsələlər də var ki, onlar hamısı iqlim probelmlərinin həlli ilə bağlıdır. Azərbaycanın 14 təşəbbüsü - iqlim dəyişmələrinin dayanıqlı inkişaf məqsədləri ilə necə əlaqələndiriləcəyinə gəlincə, Azərbaycanın irəli sürdüyü 14 təşəbbüsün həyata keçməsi üçün ölkəmiz tərəfindən real addımlar atılır, tərəfdaş dövlətlərin də buna töhfə verməsi vacibdir"-deyə A.Nəsirli əlavə etdi.